Maddi-mədəni irsimiz

# Bilgəh qalası

**Bakının Bilgəh qəsəbəsində yerləşən bu qadim qala XIII-XIV əsrlərdə Şirvanşahlar dövründə ağ daşdan tikilib. Yalnız bir hissəsi dövrümüzə gəlib çatıb.**



Bu müdafiə və müşahidə qalasından uzun müddət mayak kimi istifadə olunub. Vaxtilə gəmilərin gecə saatlarında sahili tapması, yolu azmaması üçün qalanın üzərində məşəl yandırılırmış. Elə bu səbəbdən abidə "Tonqal qalası" da adlandırılır. Məlum məsələdir ki, o dövrdə tikinti materialları çox deyildi. Bu səbəbdən qalanın palçıq və yumurta sarısından tikildiyini deyirdilər.

Qalanın sol tərəfi dəniz istiqamətinə düşdüyü üçün şoranlıqdan, nəmdən ağarıb, sağ tərəfi isə, demək olar ki, uçub. Üç mərtəbəsi, geniş zirzəmisi, yanında şirin su quyusu və gizli tuneli olduğu deyilən qalanın gözəl giriş qapısı olub. Lakin həmin qapı artıq uçub-dağılıb. Su quyusunun aqibəti barədə isə heç bir məlumat yoxdur. Deyilənə görə, qala o qədər hündür olub ki, yandırılan tonqalın (məşəl) alovu, hətta Ramana qalasından da görünüb.

Azərbaycan.- 2023.-18 aprel.- S.10.